**2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Mərkəzi Seçki Komissiyasına daxil olmuş 1 yanvar 2015-ci il tarixli 108 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində 92 saylı Zərdab-Ucar seçki dairəsindən Zərdab bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Zülfüyev İbrahim Zülfü oğlu və İsgəndərli Yaşar Talıbxan oğlu Mərkəzi Seçki Komissiyasına müraciət edərək seçki bülletenlərində onlara aid məlumatların düzgün göstərilmədiyini bildirmiş və Zərdab bələdiyyəsi üzrə seçkilərin nəticələrinin ləğv edilməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olduğundan icraata qəbul edilmiş və Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Araşdırma zamanı 92 saylı Zərdab-Ucar seçki dairəsinin dairə seçki komissiyasından təqdim edilən arayış əsasında müəyyən olunmuşdur ki, Zərdab bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər İ.Z.Zülfüyev və Y.T.İsgəndərli barədə seçki bülletenlərindəki məlumatlar namizədliyin irəli sürülməsi mərhələsində həmin şəxslərin müvafiq dairə seçki komissiyasına təqdim etdikləri bildiriş və öhdəlik ərizələrində göstərdikləri kimi bülletenlərə daxil edilmiş, səsvermə günü isə seçki bülletenlərində həmin namizədlərə aid məlumatlarda hər hansı əlavə və düzəliş olunması halları baş verməmişdir.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş yazılı sübutlarla müraciətdə iddia olunan hallar təkzib olunduğundan şikayət təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **q ə r a r a  a l ı r :**

1. 92 saylı Zərdab-Ucar seçki dairəsindən Zərdab bələdiyyəsi üzvlüyünə qeydə alınmış namizədlər Zülfüyev İbrahim Zülfü oğlu və İsgəndərli Yaşar Talıbxan oğlunun 1 yanvar 2015-ci il tarixli 108 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.
2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr | Məzahir Pənahov

Katib | Arifə Muxtarova

Katib | Mikayıl Rəhimov